# IV Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi və "Tarixi şəhərlərdə kütləvi turizm" forumu keçiriləcək




Son illər ölkə rəhbərliyinin apardığı uğurlu siyasət nəticəsində Azərbaycanda həyata keçirilən quruculuq və abadlıq işləri, xüsusən Bakı şəhərində tikilən yeni infrastruktur layihələri ölkəmizin bir neçə beynəlxalq tədbirə ev sahibliyi etməsinə səbəb olub. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə də ölkəmizdə bir sıra beynəlxalq tədbirlər həyata keçirilir və Azərbaycanın mədəniyyəti, mədəni irs nümunələri, multikultural dəyərlər, mədəniyyətlərarası dialoq modelləri geniş təbliğ edilir.

Görülən işlərin davamı olaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Memarlar İttifaqı və Beynəlxalq Memarlar İttifaqının (BMİ) dəstəyi ilə 2019-cu ilin 7-11 iyun tarixlərində Bakı şəhərində "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda Beynəlxalq Memarlıq Forumu və "Mədəni irs şəhərləri və turizm çağırışları" adlı IV Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi keçiriləcək.

Forum çərçivəsində tarixi şəhərlərdə kütləvi turizm nəticəsində baş verə biləcək problemlərin həlli yolları müzakirə ediləcək, tarixi şəhərlər və turistlər arasında ahəngə nail olmaq üçün memarların, eləcə də səlahiyyətli şəxslərin müzakirə dialoqu yaradılacaq.

IV Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin əsas məqsədi isə mükəmməl layihələndirmə və məsuliyyətli planlaşdırma metodlarını, mədəni irs yerlərində və tarixi əhəmiyyətə malik yerlərdə turizmin inkişafını əks etdirən layihələri (təklif olunan və həyata keçirilən) tanıtmaqdır. Bu, turistlərin yerləşdirilməsi, tarixi əhəmiyyətli yerlərin və obyektlərin təfsir edilməsi və ya açılması üçün yeni imkanlar yarada bilər, eləcə də mövcud binaların turizm məqsədləri üçün uyğun şəkildə yenidən istifadəsinə yol açar.

Qeyd edək ki, tədbirin əsas operatoru Bakı Media Mərkəzi tərəfindən forumun rəsmi saytı artıq işə başlamış və forumda iştirak üçün qeydiyyat aşağıdakı sayt vasitəsilə həyata keçirilir:

www.uia2019baku.org.

Fəxriyyə Abdullayeva